# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## Naxçıvan Muxtar Respublikasında uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında" 2016-cı il 11 iyul tarixli 271 nömrəli qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının dövlət ümumtəhsil məktəblərində dövlət büdcəsinin vəsaiti hesabına məktəbəhazırlıq qrupları açılsın və bununla bağlı tələb olunan xərclərin maliyyələşdirilməsi hər il dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilsin.

2. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi:

2.1. 5 yaşlı uşaqların məktəbəhazırlıq təhsilinin təşkilində məktəbəqədər təhsil müəssisələri ilə yanaşı, mövcud təhsil və digər sosial-mədəni obyektlərin infrastrukturundan, dövlət ümumtəhsil məktəblərinin pedaqoji kadr potensialından istifadə etsin;

2.2. əlavə olunmuş cədvələ əsasən 2016-2017-ci dərs ilindən başlayaraq, ayrılmış büdcə vəsaiti çərçivəsində 2020-ci ilədək uşaqların məktəbəhazırlıqla əhatə olunması səviyyəsinin mərhələlərlə 90 faizə çatdırılmasının təmin edilməsi üçün aidiyyəti icra hakimiyyəti orqanları ilə birlikdə zəruri təşkilati-pedaqoji tədbirləri həyata keçirsin.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi muxtar respublikanın dövlət ümumtəhsil məktəblərində məktəbəhazırlıq təhsilinin təşkili ilə bağlı maddi-texniki təminat məsələlərini həll etsinlər.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri:** **Ə.Baxşıyev**

«3» avqust 2016-cı il

№ 78

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il "3" avqust tarixli 78 nömrəli qərarına

**əlavə**

# Naxçıvan Muxtar Respublikasında 2016/2017 - 2019/2020-ci tədris illərində uşaqların məktəbəhazırlığa cəlb edilməsi üzrə

# P R O Q N O Z

| S/№ | Şəhər (rayon) | 2011-ci ildə doğulan uşaqlar | Onlardan 2016 - 2017-ci dərs ilində məktəbəhazırlığa cəlb ediləcək uşaqlar | | 2012-ci ildə doğulan uşaqlar | Onlardan 2017 - 2018-ci dərs ilində məktəbəhazırlığa cəlb ediləcək uşaqlar | | 2013-cü ildə doğulan uşaqlar | Onlardan 2018 - 2019-cı dərs ilində məktəbəhazırlığa cəlb ediləcək uşaqlar | | 2014-cü ildə doğulan uşaqlar | Onlardan 2019 - 2020-ci dərs ilində məktəbəhazırlığa cəlb ediləcək uşaqlar | | 2011 - 2014-cü illərdə doğulan uşaqların cəmi sayı | Onlardan 4 il ərzində məktəbəhazırlığa cəlb ediləcək uşaqlar | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | **sayı** | **faizi** | | **sayı** | **faizi** | | **sayı** | **faizi** | | **sayı** | **faizi** | | **sayı** | **faizi** |
| **1.** | Naxçıvan şəhəri | 1383 | 1037 | 75 | 1181 | 1063 | 90 | 1157 | 1041 | 90 | 1151 | 1036 | 90 | 4872 | 4177 | 85.7 |
| **2.** | Şərur rayonu | 1018 | 764 | 75 | 1152 | 1037 | 90 | 1148 | 1033 | 90 | 1084 | 976 | 90 | 4402 | 3810 | 86.5 |
| **3.** | Babək rayonu | 932 | 699 | 75 | 984 | 886 | 90 | 942 | 848 | 90 | 974 | 877 | 90 | 3832 | 3310 | 86.4 |
| **4.** | Ordubad rayonu | 533 | 400 | 75 | 483 | 435 | 90 | 487 | 438 | 90 | 521 | 469 | 90 | 2024 | 1742 | 86.0 |
| **5.** | Culfa rayonu | 463 | 347 | 74.9 | 529 | 476 | 90 | 542 | 488 | 90 | 555 | 500 | 90.1 | 2089 | 1811 | 86.7 |
| **6.** | Şahbuz rayonu | 187 | 140 | 74.9 | 223 | 201 | 90 | 227 | 204 | 90 | 221 | 199 | 90 | 858 | 744 | 86.7 |
| **7.** | Kəngərli rayonu | 434 | 326 | 75.1 | 354 | 319 | 90 | 390 | 351 | 90 | 447 | 402 | 89.9 | 1625 | 1398 | 86.0 |
| **8.** | Sədərək rayonu | 138 | 104 | 75.4 | 141 | 127 | 90 | 134 | 121 | 90.3 | 152 | 137 | 90.1 | 565 | 489 | 86.5 |
| | **Cəmi** | **5088** | **3817** | **75** | **5047** | **4544** | **90** | **5027** | **4524** | **90** | **5105** | **4596** | **90** | **20267** | **17481** | **86.2** |